**“Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və aqrar sahənin maliyyələşməsinin stimullaşdırılması ilə bağlı bir sıra məsələlər barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 12 (I kitab), maddə 2570) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bəndə “Kreditlərin” sözündən sonra “, təminatların” sözü və “öz adından və” sözlərindən sonra “tam və ya qismən” sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

“1.3-1. Bu Qaydanın 5.7-ci bəndinə uyğun olaraq təminat tətbiq edilməklə verilmiş mikrokreditlərin qeyri-işlək hissəsi üzrə risklər qismən Agentlik tərəfindən qarşılanır. Mikrokreditlərin qeyri-işlək hissəsi (qeyri-işlək kredit) dedikdə, kredit üzrə əsas borc ödənişlərinin müqavilədə göstərilən tarixdən 90 (doxsan) təqvim günündən artıq gecikdirilmiş hissəsi (məbləği) başa düşülür.”;

1.3. 1.7-ci bənddə “Maliyyə Bazarlarına Nəzarət Palatası” sözləri “Mərkəzi Bankı” sözləri ilə əvəz edilsin;

1.4. 2.1.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.6-cı yarımbənd əlavə edilsin:

“2.1.6. bu Qayda ilə müəyyən edilmiş qaydada təminatın maliyyələşdirilməsi.”;

1.5. 4.4-cü bəndin altıncı cümləsinə “kredit vəsaiti” sözlərindən sonra “(bu Qaydanın 5.1.5-ci yarımbəndində nəzərdə tutulan güzəştli kreditlər istisna olmaqla)” sözləri əlavə edilsin;

1.6. 5.1.1-ci yarımbənddə “5 000” rəqəmləri “15 000” rəqəmləri ilə əvəz edilsin;

1.7. 5.1.2-ci yarımbənddə “5 001” rəqəmləri “15 001” rəqəmləri ilə əvəz edilsin;

1.8. 5.2.1-ci yarımbənddə “2” rəqəmi “3” rəqəmi ilə əvəz edilsin;

1.9. 5.7-ci, 5.8-ci bəndlər və 5.9.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.7. Agentlik bu Qaydada nəzərdə tutulan vəsaiti müvəkkil kredit təşkilatlarına təminatsız verilən mikrokreditlər və ya digər güzəştli kreditlər üçün illik 2 faiz, təminatla verilən mikrokreditlər üçün isə əlavə 0,5 faiz olmaqla, illik 2,5 faiz tətbiq etməklə verir. Müvəkkil kredit təşkilatlarının Agentliyin kredit vəsaitinə tətbiq etdiyi illik faiz dərəcəsinin ən yüksək həddi (Agentliyin tətbiq etdiyi faizlər də daxil olmaqla) müvafiq olaraq öhdəliklərin icrasının təmin edilməsi üsulu müəyyən edilmədən verilən mikrokreditlər üçün 12 faizdən, digər güzəştli kreditlər üçün isə 7 faizdən artıq olmamalıdır.

5.8. Müvəkkil kredit təşkilatları vasitəsilə verilmiş kredit vəsaitindən istifadəyə görə Agentliyin hesabına ödənilmiş faiz məbləğinin 1/2 hissəsi, təminatla verilmiş mikrokreditlər üçün Agentliyin hesabına ödənilmiş faiz məbləğinin isə 3/5 hissəsi həmin kreditlərin qeyri-işlək hissəsi və təminat üzrə tələblərin ödənilməsi məqsədilə Agentliyin açdığı xüsusi hesabda saxlanılır. Bu vəsait vaxtı keçmiş kreditlər üzrə ödənişlər edilməsi məqsədilə tədbirlər görülməsinə, habelə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş meyarlar üzrə ümidsiz hesab olunan aktivlərin balansdan silinməsinə və təminatlar üzrə tələblərin ödənilməsinə yönəldilir.”;

“5.9.1. qalıq məbləğin 1/4 hissəsi Agentliyin işçilərinin sosial müdafiəsini gücləndirmək, aylıq vəzifə maaşlarına əlavələr vermək, ştatdankənar vəzifələrə cəlb edilmiş əməkdaşların əməyinin ödənişi, Agentliyin maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə ayrılır;”;

1.10. 5.9.2-ci yarımbəndə “ödənilməsinə” sözündən sonra “, habelə kənd təsərrüfatı layihələrinin və kreditlərinin idarə edilməsi sahəsində elmi-texniki potensialın artırılmasına” sözləri əlavə edilsin;

1.11. aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilsin:

“5-1. Mikrokreditlər üzrə təminatın verilməsi

5-1.1. Agentlik tərəfindən müvəkkil kredit təşkilatlarına illik 2,5 faiz tətbiq edilməklə verilmiş mikrokreditlər üzrə təminatın məbləği aşağıdakı qaydada hesablanır:

5-1.1.1. qeyri-işlək kreditin məbləği mikrokreditlər üzrə qalıq portfelin 12 faizədək hissəsini təşkil etdikdə:

TM = QİK - (QM x 6%), burada:

TM – təminatın məbləği;

QİK – təminatlı mikrokreditlər üzrə əsas borc ödənişlərinin 90 (doxsan) təqvim günündən çox gecikdirilən hissəsi (məbləği);

QM – təminatlı mikrokreditlər üzrə əsas kredit borcunun qalıq məbləği (qalıq portfel);

5-1.1.2. qeyri-işlək kreditin məbləği mikrokreditlər üzrə qalıq portfelin 12 faiz və daha çox hissəsini təşkil etdikdə:

TM = QM x 6%, burada:

TM – təminatın məbləği;

QM – təminatlı mikrokreditlər üzrə əsas kredit borcunun qalıq məbləği (qalıq portfel).

5-1.2. Müvəkkil kredit təşkilatı təminatlı mikrokreditlər üzrə qeyri-işlək kreditin məbləğini təsdiq edən sənədləri Agentliyə təqdim etdiyi gündən 10 (on) bank günü ərzində Agentlik bu Qaydanın 5-1.1-ci bəndi ilə müəyyən edilmiş qaydada hesablanan vəsaiti müvəkkil kredit təşkilatına geri ödəyir.

5-1.3. Agentlik tərəfindən ödəniş edildikdən sonra borcalan qeyri-işlək kredit portfelinə daxil olan borc öhdəlikləri üzrə ödəniş etdikdə, müvəkkil kredit təşkilatı həmin vəsaitin Agentliyin riskinə aid olan hissəsini proporsional qaydada (Agentliyin mikrokredit zəmanəti üzrə itkiləri bərpa edilənədək) ödəniş edildiyi gündən 10 (on) bank günü ərzində Agentliyə geri qaytarır.”;

1.12. 7.5-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Agentlik layihə üzrə müəyyən edilmiş şərtləri pozan müvəkkil kredit təşkilatları barədə məlumatı təxirəsalınmadan

Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edir.”.

2. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə olunsun ki, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən təminat verilmiş mikrokreditlər üzrə müvəkkil kredit təşkilatlarının aktivlərinin risk qrupunu müəyyən etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 aprel 2020-ci il
985